# Vaşinqton Universiteti

Vaşinqton Universiteti *(University of Washington)* ABŞ-ıın Vaşinqton ştatının Sietl şəhərində yerləşir və ştatın ən böyük dövlət universitetidir. Amerika Universitetləri Assosiasiyasının üzvü olan universitet Böyük Britaniyanın "The Times Higher Education World University Rankings" jurnalının 2015-2016-cı dərs ili üçün reytinq sıralamasında 100 ən yaxşı ali məktəb arasında 29-cu, 2016-2017-cı tədris ili üçün reytinq cədvəlində 25-ci, "QS World University Rankings"in 2015-2016-cı dərs ilində apardığı reytinq qiymətləndirməsində 65-ci, builki reytinq sıralamsında 59-cu yerdə qərarlaşıb. Amerikanın milli universitetləri reytinqində 54-cü yerdədir. "Röyter"in versiyasına görə, Vaşinqton Universiteti 2015-ci ildə dünyanın 100 ən innovativ universitetlərinin reytinqində 4-cü yeri tutub.

**Yerləşir:** ABŞ, Vaşinqton ştatı, Sietl şəhəri
**Yaranma tarixi:** 1861-ci il
**Tipi:** Dövlət
**Akademik heyət:** 5803 nəfər
**Tələbələrin ümumi sayı:** 55767 nəfər
**Rəsmi saytı:** www.washington.edu





*Nanotexnologiyalar laboratoriyasında*



*Universitetin kitabxanasında*



*2016-cı ilin məzunları*

## Tarixi

Sietl şəhəri XIX əsrdə Vaşinqton ərazisində insanların daha çox məskunlaşdıqları ərazilərdən biri olub. 1854-cü ildə Vaşinqton ərazisinin ilk qubernatoru İsaak Stivens bu ştatda universitet yaradılması haqqında təklif irəli sürüb. Sietl şəhərində yaşayan bir neçə tanınmış şəxs, o cümlədən metodizm hərəkatının təbliğatçısı Daniil Beqli şəhərin nüfuzunun artırılması məqsədilə universitetin Sietl şəhərində yaradılmasını istəyib. Onlar ştatın qanunvericilik orqanının üzvü Artur Denni universitetin məhz bu şəhərdə yaradılmasına razı sala biliblər. Qanunvericilik Şurası Luis və Sietl ərazilərində iki universitet yaratmaq qərarına gəlsə də, sonradan ali məktəbin yalnız Luis ərazisində reallaşdırılması düşünülür. Lakin Luisdə universitetin yaradılması üçün münasib ərazi tapılmadığından bu iş 1858-ci ildə Sietl şəhərində həyata keçirilir.

1861-ci ildə Sietl şəhərində yeni universitet yaradılması üçün xeyriyyəçilər Artur Denni, Edvard Lander və Çarli Terri tərəfindən 10 akr (40000 $m^2$) ərazi hədiyyə edilir.Yeni yaradılan universitet Vaşinqton Universiteti adlandırılır və onun rəsmi açılışı 1861-ci il noyabrın 4-də baş tutur. Bir il sonra universitetdə Naiblər Şurası yaradılır. 1863, 1867 və 1876-cı illərdə ali məktəb tələbə qıtlığı və maliyyə çatışmazlığı səbəbindən bağlanmaq təhlükəsi ilə üzləşir. Universitetin ilk məzunlarından biri 1876-cı ildə ali məktəbin bakalavr pilləsini dəqiq elmlər üzrə bitirmiş Klara Antuanetta Makkarti Uitl olur. Həmin dövrdə universitet yüksək inkişaf yoluna qədəm qoyur. Burada təhsil alan tələbələrin sayı 30-dan 300-dək çoxalır.

1895-ci ildə hökumətin ayırdığı maliyyə yardımı hesabına Vaşinqton Territorial Universitetinin şəhərin mərkəzindən şimal-şərqdə Union Bey kampusu açılır. Universitetin əsas binası 1908-ci ildə dağıdılır və hazırda həmin yerdə Feyrmont Olimpiya oteli yerləşir. I və II Dünya müharibələri universitetin inkişafında durğunluğa səbəb olur. Müharibədən sonrakı illərdə universitet daha yüksək sürətlə inkişaf etməyə başlayır. 1916-cı ildən 1939-cu ilədək universitetin humanitar fakültəsinin yerləşəcəyi dördbucaq binaların tikintisi başa çatdırılır. Ali məktəbin inkişafı ilə bağlı olan önəmli hadisələrdən biri də 1946-cı ildə Tibb Mərkəzinin açılışı olur.

1950-ci ilin əvvəllərində universitetin Polis Departamenti fəaliyyətə başlayır. 1960-1970-ci illər universitet tarixində "Qızıl əsr" kimi yadda qalır. Həmin dövrdə ali məktəbin tələbələrinin sayı, büdcəsi sürətlə artır, kampusu genişlənir, yeni binaları tikilir. Bir çox Amerika universitetlərində olduğu kimi, Vaşinqton Universitetində də Vyetnam müharibəsinə etiraz olaraq tələbə aksiyaları keçirilir. Eyni zamanda Vaşinqton ştatının senatorları Henri Cekson, Uorren Maqnuson universitetə dövlət tərəfindən tədqiqatlar üçün maliyyə yardımları ayrılmasına nail olurlar. Hazırda da Vaşinqton Universiteti ən çox tədqiqat yardımı alan ABŞ universitetidir. 1990-cı ildə universitetin Bothell və Takoma filialları açılır. İlk vaxtlar bu kampuslarda yalnız bakalavr səviyyəsi üzrə təhsil verilsə də, 2006-cı ildən başlayaraq magistr proqramları da təklif olunur.

## Universitet bu gün

Vaşinqton Universiteti üç əsas kampusdan - Sietl, Takoma və Bothell tələbə şəhərciklərindən ibarətdir. Sietl kampusu Union və Porteyc körfəzlərinin sahilində yerləşir, şərqdən Kaskad, qərbdən isə Olimp dağları ilə əhatə olunur. Kampusun ən görməli yerləri kimi Suzzallo kitabxanasını, Yoşino albalı bağını, bağdan qərbdə yerləşən Qırmızı meydanı qeyd etmək mümkündür. Sietl kampusu öz növbəsində Şərqi, Qərbi və Cənubi hissələrə bölünüb. Şərqi kampus şərqdən Montleyk bulvarı ilə sərhəddir, əsasən bataqlıq ərazilərindən, idman meydançalarından ibarətdir. Qərbi kampus 15-ci avenyu və şimal-şərqdə 41-ci küçəyədək uzanır. Cənubi kampus Pasifik küçəsi və Vaşinqton gölü Gəmiçilik kanalı arasında yerləşir. Bu kampusda tibbi elmlər, okeanoqrafiya, balıqçılıq bölmələri, Vaşinqton Universiteti Tibb Mərkəzi yerləşir. Universitetin ən qədim binası Denni Holldur. Bu bina 1895-ci ildə fransız intibahı üslubunda tenino qum daşından inşa edilib və Sietl alimləri Artur Aleksandroviç və Mariya Denninin adını daşıyır. Uzun illər bu tikili universitetin əsas binası kimi fəaliyyət göstərib. Denni binasının tikintisində işlədilən qum daşından Teodor Yakobsen rəsədxanasında da istifadə olunub. Rəsədxana az istifadə olunsa da, kampusun ərazisində ikinci ən qədim binadır. Kampusda sonradan Naiblər Şurasının yerləşdiyi və digər binalar tikilir. Universitetin qırmızı kərpicdən tikilmiş binaları yerləşən ərazi Qırmızı meydan adlanır. Quld və Bebb binaları, Suzzallo, Mərkəzi kitabxanalar ensiklopedik qotik üslubuna aiddir. Ali məktəbin kampusunda 1960-cı ildən sonra tikilən binalar modern üslubdadır.Universitetin 1961-ci ildə tikilmiş Nüvə reaktoru binası şüşə divarlara malikdir. Burada 1972-ci ildə baş vermiş şüa sızmasından sonra 1998-ci ildə reaktorun bağlanılması qərarı verilir. "Microsoft"un yaradıcıları Pol Allen və Bill Qeyts universitetlə sıx ailə əlaqələrinə malik olduqlarından (onların valideynləri bu universitetdə dərs deyiblər) 2000-ci ildə ali məktəbdə onların şərəfinə Meri Geyts Holl, Uilyam Geyts Holl, 2003-cü ildə isə Pol Allen Kompüter Elmləri və Mühəndislik Mərkəzi açılıb.

2006-cı ildə universitetdə Bil Geyts və ABŞ Prezidenti Cimmi Karterin şərəfinə Uilyam Foeq Biomühəndislik və Genom Elmləri binaları istifadəyə verilib. Kampus ərazisindəki digər binalardan Sietl şəhərciyindəki Henri Bədii qalereyasını, Berk Təbii Tarix və Mədəniyyət muzeyini, Vaşinqton Dendari Parkını, Uorren Maqnuson Sağlamlıq Elmləri Mərkəzini (533280 $m^2$-ABŞ-da ikinci ən böyük bina) qeyd etmək olar.

Vaşinqton Universitetində 16 kollec, 150-dən çox fakültə fəaliyyət göstərir. İncəsənət və Dəqiq Elmlər Kolleci Amerika etnik tədqiqatları, Amerika hindu tədqiqatları, Asiya dilləri və ədəbiyyatı, Yaxın Şərq dilləri və sivilizasiyası, Skandinav tədqiqatları, ingilis dili, Linqvistika, Nitq və eşitmə elmləri, Müqayisəli ədəbiyyat, Müqayisəli ideyalar tarixi, fransız və italyan tədqiqatları, Almaniya tədqiqatları, Slavyan dilləri və ədəbiyyatları, İspan və portuqal tədqiqatları, Fəlsəfə, Psixologiya, Sosiologiya, Statistika, İncəsənət, Klassika, Musiqi, Rəqs, Dram, Tarix, Hüquq, Cəmiyyət və ədalət, Antropologiya, Kommunikasiya, Siyasi elmlər, İqtisadiyyat, Gender məsələləri, Qadın və cinsi tədqiqatlar, Coğrafiya, Tətbiqi riyaziyyat, Astronomiya, Biologiya, Kimya, Fizika, Riyaziyyat departamentlərindən, Cekson Beynəlxalq Tədqiqatlar Məktəbindən ibarətdir. Ətraf Mühit Quruculuğu Kollecinə Memarlıq, İnşaat idarəetməsi, Landşaft memarlığı, Şəhər dizaynı və planlaşdırma departamentləri aiddir. Kollecdə şəhərsalma, sosial, iqtisadi, mədəni, fundamental və s. məsələlərin həlli üzrə tədqiqatlar aparılır, tarixi irsin və ətraf mühitin qorunması üçün mühüm işlər həyata keçirilir.

Mühəndislik Kolleci Aeronavtika və astronavtika, Biomühəndislik, Kimya texnologiyaları, Vətəndaş və ekologiya maşınqayırması, Kompüter elmləri və texnika, Elektrik maşınqayırması, Dizayn və mühəndislik, Sənaye və sistemlərin işlənməsi, Material elmləri və mühəndislik, Maşınqayırma, Bioresurs elmləri və texnika departamentlərindən ibarətdir.

Ətraf Mühit Kollecində İqlimin Təsiri, İqlim Dəyişməsi, Meşə Məhsullarının Beynəlxalq Ticarəti, Meşə Təsərrüfatı, Balıqçılıq və Vəhşi Təbiət, Təbii Sərvətlər, Sakit okean Şimal-Şərq Seysmik Tədqiqatlar, Su resursları, Dördüncü Dövr Tədqiqatları mərkəzləri, Birləşmiş Atmosfer və Okean Tədqiqatları, Ekologiya institutları, Vaşinqton Botanika bağı, Vaşinqton NASA Kosmik Konsorsiumu fəaliyyət göstərir.

Biznes Kollecinə Mühasibat, Maliyyə və biznes iqtisadiyyatı, İnformasiya sistemləri və əməliyyatların idarə olunması, Menecment və təşkilat, Marketinq və beynəlxalq biznes departamentləri daxildir. Kollecdə Qlobal biznes, İnnovasiya və sahibkarlıq, Biznesdə beynəlxalq tədqiqatlar, Pərakəndə idarəetmə, Satış, Sahibkarlıq texnologiyası, müxtəlif MBA proqramları təklif olunur.

Stomatologiya Kolleci Stomatoloji səhiyyə elmləri, Endodontiya, Ağız biologiyası, Ağız tibbi, Üz-çənə cərrahiyyəsi, Ortodontiya, Uşaq stomatologiyası, Parodontologiya, Bərpa stomatologiyası (Protezləşdirmə) departamentlərindən ibarətdir.

Pedaqogika Kollecində Tədris planı və təlimat, Pedaqoji liderlik və siyasi tədqiqatlar, Təhsil psixologiyası, Xüsusi təhsil, Pedaqoji təhsil, Fənlərarası tədqiqatlar, Bakalavr təhsili departamentləri fəaliyyət göstərir. Kollecdə Çoxmədəniyyətli təhsil, Pedaqoji liderlik, Dəqiq elmlər və riyaziyyat, Xüsusi təhsil, Rəsmi və qeyri-rəsmi mühitdə təhsil və s. proqramlar təklif olunur. Burada Müəllim, tədris və şagirdlər, Təhsil siyasəti və islahatları, Tədqiqat və təhqiqat metodları sahələri üzrə tədqiqatlar həyata keçirilir.

İnformasiya Kolleci İnformatika üzrə bakalavr, Kitabxana informatikası, İnformasiya menecmenti üzrə magistr, PhD səviyyələri, təhsilin davametdirilməsi proqramları təklif edir. Kollecdə informasiya sistemləri, mobil texnologiyalar və sosial media, insan və kompüter əlaqələri, informasiya memarlığı, şəbəkə informasiya təminatı, strateji planlaşdırma və digər məsələlər üzrə tədqiqatlar həyata keçirilir.

Hüquq Kollecində Asiya müqayisəli hüquqşünaslıq hüququ, Qlobal biznes hüququ, Səhiyyə hüququ, Ekoloji hüquq, İntellektual mülkiyyət və siyasət, Vergi, Beynəlxalq hüququn sabit inkişafı proqramları təklif olunur. Kollecin Asiya Hüquq, Dəqiq Elmlər və Qlobal Səhiyyə Hüququ, Hüquq, Texnologiya və incəsənət, İntellektual Mülkiyyət Perspektiv Tədqiqatlar, Doğma Amerika Qanunu mərkəzləri, Barer Hüquq və Qlobal Sosial Təminat İnstitutu fəaliyyət göstərir.

Tibb Kolleci Stomatologiya, Tibb bacısı, Əczaçılıq, İctimai Səhiyyə, İctimai Fəaliyyət məktəblərindən, Anesteziologiya və ağrıkəsici dərmanlar, Biokimya, Biomühəndislik, Bioetika və humanitar elmlər, Bioloji struktur, Müqayisəli tibb, Genom elmlər, Ailə tibbi, Qlobal səhiyyə, İmmunologiya, Laborator tibb, Tibbi təhsil və biotibbi informatika, Tibb, Allergiya və infeksion xəstəliklər, Kardiologiya, Dermatologiya, Təcili tibbi yardım, Qastroenterologiya, Ümumi daxili təbabət, Gematologiya, Tibbi genetika, Metabolizm, endokrinologiya və qidalanma, Nefrologiya, Onkologiya, Pulmonologiya və intensiv terapiya, Revmatologiya, Mikrobiologiya, Nevroloji cərrahiyyə, Nevrologiya, Mamalıq və ginekologiya, Ürək-damar cərrahiyyəsi və digər departamentlərindən ibarətdir.Tibb bacısı Kollecinə Tibb bacısı və səhiyyə sistemi, Ailə və uşaqlara qulluq, Psixososial və ictimai səhiyyə departamentləri, Sağlamlıq Elmləri Təhsili, Körpənin Psixoloji Sağlamlığı və İnkişafı, Geriatrik Fənlərarası Tədqiqatlar və s. mərkəzlər daxildir. Əczaçılıq Kollecinə Əczaçılıq Məktəbi, Tibbi kimya, Əczaçılıq departamentləri daxildir. Kollecdə ən yeni dərman preparatlarının hazırlanması üzrə tədqiqatlar aparılır, təbii yolla dərman vasitələrinin əldə olunmasına üstünlük verilir. İctimai Səhiyyə Kolleci Biostatistika, Ətraf mühit və əmək gigiyenası elmləri, Epidemiologiya, Qlobal səhiyyə, Tibbi xidmətlər departamentlərindən ibarətdir. Kollecdə Səhiyyə idarəetməsi, Ana və uşaq sağlamlığı, Qida elmləri, Patobiologiya və Genetika səhiyyəsi fənlərarası proqramları təklif olunur.

Sosial Fəaliyyət Kollecində Pasiyentlərin fiziki və psixoloji sağlamlığı, Konflikt, sosial ədalət, koalisiyanın yaradılması, Amerika yerli əhalisinin tibbi müayinəsi, Valideyn-uşaq münasibətləri, Ana, uşaq və yeniyetmələrin sağlamlığı, Latın Amerikası, Afroamerikalıların və Asiya əsilli amerikalıların sağlamlığı, Vyetnam və Komboca immiqrantlarının öyrənilməsi, Yaşlı insanların depressiya və sosial əlaqə tədqiqatları, eləcə də cəmiyyətin digər aktual məsələlərini əhatə edən proqramlar üzrə tədqiqatlar aparılır. İctimaiyyətlə Əlaqə Kolleci və ya Evans İctimaiyyətlə Əlaqə Məktəbi Qeyri-kommersiya idarəetməsi, Ekoloji siyasət və idarəetmə, Yoxsulluq tədqiqatları, Təhsil, Beynəlxalq münasibətlər, Dövlət idarəetməsi, siyasi analiz və maliyyə proqramları üzrə tədqiqatlar həyata keçirir. Kollec magistr və doktorantlar üçün nəzərdə tutulub və sadalanan bütün sahələr üzrə magistrant və doktorluq proqramları təklif edir. Vaşinqton Universitetinin idman komandaları "Vaşinqton eskimosları" və ya universitetin Montleyk bulvarının yaxınlığında yerləşdiyi üçün "Montleyk" adlandırılır. Universitet idmanın bir çox növləri üzrə uğurlar qazanıb. Xüsusi ilə universitetin tələbələri futbol, basketbol, softbol, avarçılıq, qolf, qadınlar arasında voleybol, üzgüçülük üzrə yüksək nəticələr əldə ediblər. Universitetin "Husky" (Eskimos) stadionu bir çox yarışların təşkil olunduğu məşhur məkanlardan biridir.

Bilik və kəşfləri ilə seçilən ali məktəbin əsas məqsədi dünya əhalisinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir. Elə universitetin "Qoy işıq olsun!" şüarı da buradan qaynaqlanıb.

## Büdcəsi və təhsil haqqı

Vaşinqton Universitetinin 2015-ci ildə illik büdcəsi 6.4, 2016-cı ildə 6.9 milyard Amerika dolları təşkil edib. Universitetin ötən tədris ilində endaument fondunun həcmi 3.148.083.552 ABŞ dollarına çatıb. Ali məktəbin prezidenti Anna Marı Kasdır. Universitetin akademik heyəti 5803 nəfər, inzibati işçilərinin sayı 16174 nəfərdir. 2015-2016-cı tədris ilində universitetdə təhsil alan tələbələrin ümumi sayı (bütün kampuslar üzrə ) 55767 nəfərə çatıb. Onlardan 40163 nəfər bakalavr, 15604 nəfər isə magistratura səviyyəsində təhsil alıb. 2015-2016-cı tədris ilində birillik təhsil haqqı bakalavrlar üçün 48760, magistrlər üçün 15000 dollar təşkil edib. Tələbələrin 13 faizi əcnəbilərin (8035 nəfər) payına düşür. Vaşinqton Universitetinə 2015-ci ildə elmi tədqiqatların inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən ayrılan illik maliyyə vəsaitlərinin həcmi 1.3 milyard dollara çatıb ki, bu da ölkənin hər hansı ali təhsil və digər təşkilatlarına ayrılan vəsaitdən çox yüksəkdir. 2009-cu illə müqayisədə Vaşinqton Universitetinin dövlətə verdiyi iqtisadı mənfət 2009-cu ildəki 9.1 milyard dollardan 2016-cı ildəki 12.5 milyard dollara çatıb. Universitetin 2015-2016-cı il maliyyə hesabatına əasən, ötən tədris ilində ali məktəbin gəlir və xərclərinin ümumi həcmi 6.880.043.446 ABŞ dolları təşkil edib. 2016-2017-ci tədris ili üçün büdcənin gəlir və xərclərinin 7.067.513.000 ABŞ dollarına çatması proqnozlaşdırılır. Ali məktəbdə tələbə müəllim nisbəti 20:1 təşkil edir. Auditoriyaların 37,6 faizi hər birində 20 tələbə olmaqla formalaşıb. Tələbə məmnunluğu 94 faizdir.

Ali məktəbin məzunları arasında indiyədək 136 Fulbrayt, 35 Rods, 7 Marşall, 4 Qeyts Kembric alimləri proqramları təqaüdçüləri var. Universitetdə tələbələrə qalmaq üçün yataqxanalar, mənzillər, ailəli tələbələr üçün xüsusi evlər təklif olunur. Yataqxanalar korpusların, kitabxana və laboratoriyaların yaxınlığında yerləşdiyi üçün tələbələrə burada yaşamaq çox əlverişlidir, eyni zamanda yataqxanalar müasir restoranlara, böyük supermarketlərə, bərbərxana, bank, idman zalları və digər xidmətlərə malikdir.

## Məşhur məzunları

Vaşinqton Universitetinin məşhur məzunları arasında Ali Conson Toribionqun (Palau Respublikasının sabiq prezidenti), Aleks İfeaniçukvu Ekvuemenin (Nigeriyanın sabiq vitse-prezidenti), Armida Alisyahbananın (İndoneziyanın sabiq milli inkişaf naziri), Brok Adamsın (ABŞ-ın Vaşinqton ştatından olan sabiq senatoru), Rob MakKennanın (Vaşinqton ştatının sabiq baş prokuroru), Deniyel Evansın (Vaşinqton ştatının sabiq qubernatoru), But Qardnerin (Vaşinqton ştatının sabiq qubernatoru), Albert Rosellininin (Vaşinqton ştatının sabiq qubernatoru), Stiven MakAlpaynın (Alyaskanın sabiq qubernatoru) adlarını çəkmək olar. Ali məktəbin 7 məzunu Nobel mükafatı laureatıdır. Onlardan Linda Bak, Corc Hitçinqs, Martin Rodbell, Corc Stiqlerin (tibb və fiziologiya üzrə) adlarını çəkmək olar. 2016-cı ildə fizika sahəsində Nobel mükafatına layiq görülmüş alimlərdən biri də universitetin professoru D. Taulessdir.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*